


AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

17 avqust 2023-cü il
cümə axşamı

1933-cü ildən çıxır
№ 31 (3645)


# Bölgələrin inkişaf proqramları uğurla həyata keçirilir

## Ölkə Prezidentinin siyasi iradəsi regionda marağı olan gücləri reallıqlarla üzbəüz qoyur

**Prezident İlham Əliyevin həm azad olunmuş ərazilərdə, həmçinin digər bölgələrdə həyata keçirilən yenidənqurma işləri ilə tanışlığı, strateji obyektlərin təməlqoyma və açılış mərasimlərində iştirakı ölkəmizin gələcək inkişaf proqramlarının uğurlu icrasına töhfə verir.**



Dövlətimizin başçısının işğaldan azad olunmuş torpaqlarımızda bərpa işinin sürətlə getməsində xidmətlərini Azərbaycan xalqı yüksək qiymətləndirir. Görülən işlər ölkəmizə səfərə gələn xarici dövlətlərin rəsmi şəxsləri, diplomatlar və iş adamları tərəfindən də bəyənilir, onlar qısa zaman kəsiyində irimiqyaslı layihələrin həyata keçirilməsinin əyani şahidi olurlar. Qarabağda tikinti-quruculuq işlərinin üç il ərzində indiki səviyyəyə çatması ərazilərimiz mənfur düşmən tapdağı altında olarkən tək torpaqları azad etmək deyil, həmçinin dağıdılmış şəhərlərin, kəndlərin bərpası layihələrinin dəqiqliklə hazırlanmasından xəbər verir. Azərbaycan Prezidentinin bölgələrin inkişaf proqramlarının tərtib olunmasında və həyata keçirilməsində birbaşa iştirakı vahid siyasi iradənin olmasını sübuta yetirən amildir.

Ölkə başçısının strateji hədəflərinə diqqət çəkən ekspertlər yaxın gələcəkdə bölgədə dayanıqlı sülhün təmin olunmasını məhz onun siyasi qətiyyətinin təntənəsi kimi qiymətləndirirlər. Onlar Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında gedən yenidənqurma işlərinin sürətləndirilməsinin kökündə müxtəlif səbəblərin dayandığını qeyd edirlər. Birincisi, bu məsələ Qarabağın Azərbaycana məxsus olmasının, doğmalıq hissinin nümayiş etdirilməsinin, əsl sahibin sözlərlə deyil, əməli fəaliyyətlərlə təsdiqlənməsidir. İkincisi, məcburi köçkünlərin öz dədə-baba torpaqlarına qayıdışının təşkili, vətəndaşların yaşayış imkanlarının təmin edilməsidir. Üçüncüsü isə bölgənin iqtisadi potensialından səmərəli şəkildə istifadənin əsaslarını yaratmaqdır.

Qeyd edək ki, ölkəmiz tərəfindən azad olunmuş ərazilərlə yanaşı, paralel olaraq digər bölgələrin inkişaf etdirilməsinə dair strateji addımların atılması bütövlükdə ümumdövlət konsepsiyasının tam aydın təfsilatının nəticəsidir. Xüsusilə hərbi təyinatlı obyektlərin açılışında birbaşa dövlətimizin başçısının iştirak etməsi xaricə hesablanmış mesajlardır. Eyni zamanda, Azərbaycan üçün təhlükəsizlik məsələsinin əsas yer tutduğunun göstəricisidir. Bundan əlavə, hər hansı yarana biləcək təhdidlərin yerindəcə aradan qaldırılması üçün kompleks tədbirlərin yüksək hazırlıq səviyyəsində olduğunun növbəti sübutudur.

Bu gün Azərbaycan regionda sabitliyin qorunub saxlanması üçün yeni təşəbbüslərlə çıxış edir. Dünyaya mesaj verir ki, sülhün yeganə qarantiyası yalnız siyasi, iqtisadi əlaqələrin qurulmasından keçir. Dövlətimizin başçısının bölgələrin inkişafına yönəlik strategiyasının nüvəsində duran amillərdən biri də Azərbaycanın hər zaman regional məsələlərin həllinə praktik surətdə təkan verməsidir.

# Pirallahıda zavod açıldı

## Prezident İlham Əliyev avqustun 15-də “Diamed” dərman istehsalı müəssisəsinin açılışında iştirak edib

Qeyri-neft iqtisadiyyatının inkişafı və sənayeləşmə Prezident İlham Əliyevin iqtisadiyyatın şaxələndirilməsi siyasətinin əsas istiqamətlərindəndir. Ölkəmizdə sənayeləşmə siyasətinə uyğun olaraq ixtisaslaşmış sənaye parkları və sənaye məhəllələri yaradılır.

### Dövlətin dəstəyi genişlənir

Digər sənaye parkları kimi iqtisadiyyatımıza töhfə verən Pirallahı Sənaye Parkında bu günədək əczaçılıq məhsullarının istehsalı sahəsində ixtisaslaşmış 6 müəssisə rezident kimi qeydiyyatdan keçib. Açılışı Prezident tərəfindən gerçəkləşən və bir hektar ərazisi olan “Diamed Development Group” MMC-nin dərman zavodu 3 min kvadratmetr qapalı sahədən ibarətdir. Layihənin reallaşması üçün bu müəssisəyə dövlət tərəfindən 6 milyon manat güzəştli kredit verilib. Digər bir dövlət dəstəyi çərçivəsində müəssisə idxal etdiyi avadanlıqlara görə 1,3 milyon manat güzəşt əldə edib.

### Zavodda 100 nəfər işlə təmin olunub

İstehsal prosesi ilə yaxından tanış olan dövlətimizin başçısına məlumat verildi ki, zavodda müxtəlif adlarda, geniş çeşiddə və müxtəlif həcmlərdə həyati vacib və zəruri venadaxili dərman məhlulları istehsal olunacaq. Müəssisənin illik istehsal gücü 20 milyon litrdir. Müəssisədə istehsal edilən məhsulların yerli bazarın tələbatını ödəməsi ilə yanaşı, Rusiya, Gürcüstan və Orta Asiya ölkələrinə ixracı da nəzərdə tutulur. “Diamed” dərman zavodunda 100 iş yeri yaradılıb. Müəssisənin layihəsi İsveçrə şirkəti tərəfindən Qabaqcıl İstehsal Təcrübəsinə, istehsal xətti isə Avropa Farmakopeyasına uyğun olaraq hazırlanıb. Yüksək texnologiya və tam qapalı sistemlə təchiz edilmiş zavodun istehsal avadanlıqları İtaliya, ABŞ, Almaniya, İsrail kimi ölkələrdən alınıb. İstehsal olunan məhsullar zavoda məxsus müasir laboratoriyada Avropa Farmakopeyasının tələblərinə uyğun mütəmadi olaraq yoxlanılır.

# Rəsmi xəbərlər

- Prezident İlham Əliyev avqustun 16-da Azərbaycan Respublikası vətəndaşlarının 2023-cü il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında sərəncam imzalayıb

- Prezident İlham Əliyev avqustun 15-də Mahaçqalada yanacaqdoldurma stansiyasında baş vermiş partlayış nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə başsağlığı verib.

- Prezident İlham Əliyev avqustun 14-də Azərbaycanda teatr sənətinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Ramiz Ağarza oğlu Məlikin “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif edilməsi barədə sərəncam imzalayıb.

- Prezident İlham Əliyev avqustun 14-də Azərbaycan musiqi mədəniyyətinin inkişafında xidmətlərinə görə Akif Qədir oğlu İslamzadənin “Şöhrət” ordeni ilə təltif edilməsi barədə sərəncam imzalayıb.

- Prezident İlham Əliyev avqustun 14-də Beyləqan rayonunun Allahyarlı–Qəhrəmanlı–Gödəklər–Bünyadlı–Sarısu avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.

# Prezidentin bu diqqəti rəğbətlə qarşılanır

## Postmüharibə dövründə sosial dəstək paketinin həyata keçirilməsi dövlətin iqtisadi gücünün təzahürüdür

Vətən müharibəsində əldə etdiyimiz qələbə bir daha onu göstərdi ki, Azərbaycan regionun hərbi, siyasi və iqtisadi gücü, dünyanın hesablaşdığı bir dövlətdir. Və şanlı Zəfərimizdən sonra ötən dövr ərzində işğaldan azad edilmiş torpaqlarda geniş miqyas alan abadlıq və quruculuq işləri böyük ruh yüksəkliyi ilə müşayiət olunan qayıdışları təzləşdirmək, əhalinin öz doğma-yurd yuvalarında yaşayışını təmin etmək məqsədi daşıyır. Odur ki, bu istiqamətdə atılan hər bir addım təkcə ölkəmizin deyil, dünya gündəminin də manşetinə çevrilir.

Bu gün hər bir vətəndaşın sosial durumunun yaxşılaşması, firavanlığı dövlət başçımızın xüsusi diqqət mərkəzindədir. Cəmiyyətin həssas təbəqəsi olan şəhid ailələri üzvləri və müharibə iştirakçıları ilə bağlı genişmiqyaslı sosial dəstək paketinin həyata keçirilməsi, sözün əsl mənasında, böyük rəğbət hissilə qarşılanır.

Yeri gəlmişkən, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu paket çərçivəsində postmüharibə dövründə həyata keçirilənlərə aydınlıq gətirib:

· şəhid ailələri üzvləri və müharibə veteranları olan 103 min şəxsə 115 min aylıq sosial ödəniş təyin olunub, 3 793 şəxsə sığorta ödənişi edilib;

· 1997-ci il avqustun 2-dək hərbi xidmətdə aldığı xəsarətlə bağlı əlilliyi olan 17 min 234 şəxs üzrə birdəfəlik ödəmə verilib;

· şəhid ailələri üzvləri və müharibə ilə əlaqədar əlilliyi olanlara yönələn sosial ödənişlər hər il artırılıb, müharibə veteranlarına aylıq təqaüd təyin edilib;

· şəhid ailələri, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminatı proqramı 5 dəfə genişlənib, onlara 5 100 mənzil və fərdi ev, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 324 avtomobil təqdim edilib (Ümumilikdə ötən dövrdə bu kateqoriyalardan olanlara 13 min 900 mənzil və fərdi ev, müharibə ilə əlaqədar əlilliyi olanlara 7 min 500-dən çox avtomobil verilib);

· şəhid ailələri üzvləri, müharibə iştirakçıları olan 11 min nəfərə 47,5 min sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib;

· müharibə ilə əlaqədar əlilliyi olan 1 963 şəxs 41,3 min reabilitasiya vasitəsi, o cümlədən 435 şəxs 454 ədəd yüksək texnologiyalı müasir protezlə təmin olunub;

· şəhid ailələri üzvləri və müharibə iştirakçıları olan 19,2 min şəxsin məşğulluğu təmin edilib, o cümlədən 10,1 min şəxs özünüməşğulluq proqramına cəlb olunub;

· vahid əlaqələndirmə mərkəzlərində həmin kateqoriyalara aid 91 min şəxsə xidmətlər göstərilib və s.

Postmüharibə dövründə qeyd olunan sosial dəstək paketi 124 min şəxsi əhatə edərək, onlara dəstəkyönümlü 300 min xidmət göstərilib.


Zəmanəmizin böyük Azərbaycanlısı 2

Asayiş, sabitlik sözü polislə qoşa çəkilirsə... 2

Bakı beynəlxalq tədbirlərə evsahibliyi edir 3

Daxili İşlər Nazirliyi müsabiqə elan edir 4

# RESPUBLİKA XƏBƏRLƏRİ

## Baş nazir qərar imzaladı

Əlilliyi olan şəxslərin dərman preparatları, tibbi xidmət və ölkə hüdudları daxilində sanatoriya-kurort müalicəsi ilə təmin olunması Qaydasına dəyişiklik edilib. Baş nazir Əli Əsədov bununla bağlı qərar imzalayıb. Qərara əsasən, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinə yeni səlahiyyət verilib.

Əlilliyi olan şəxslər "Əlilliyi olan şəxslər üçün ambulator şəraitdə istifadə olunan ən vacib dərman preparatlarının siyahısı"nda nəzərdə tutulmuş dərman preparatları Səhiyyə Nazirliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi ilə birgə müəyyən etdikləri siyahıda nəzərdə təşkil edilmiş aptek müalicə-profilaktika müəssisələrində təşkil edilmiş aptek məntəqələri vasitəsilə təmin olunacaqlar. Əvvəl bu səlahiyyət İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyində idi.

## Ağalıya 106, Laçına 65 nəfər köçürüldü

Avqustun 12-də Abşeron rayonunun Masazır kəndindən Zəngilan rayonunun yenidən salınmış Ağalı kəndinə növbəti köç karvanı yola salınıb. İndiyədək Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda müvəqqəti məskunlaşmış 22 ailə - 106 nəfər bundan sonra doğma yurdda yaşamağa başlayacaq. Onlar ermənilərin işğal dövründə tamamilə dağıtdıqları 1-ci, 2-ci və 3-cü Ağalı kəndlərinin sakinləridirlər.

Yurda qayıdışın sevincini yaşayan laçınlıların da növbəti köç karvanı avqustun 16-da Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən Laçına yola salınıb. Bu mərhələdə Laçın şəhərinə daha 18 ailə - 65 nəfər köçürülüb. Bununla da indiyədək Ağalı kəndində daimi məskunlaşdırılan ailələrin sayı 108-ə (526 nəfərə) çatıb. Laçın şəhərində isə 221 ailənin, yəni 858 nəfərin daimi məskunlaşması təmin edilib.

## Şəhid övladlarına Avropada yay məktəbi təşkil edilib

"ASAN xidmət"in və "YAŞAT" Fondunun birgə təşkilatçılığı, "NEQSOL Holding"in və "Bakcell"in dəstəyi ilə şəhidlərimizin övladları üçün Almaniyanın Frankfurt şəhərində yay məktəbi başlayıb. Məqsəd şəhid övladlarının dünyagörüşünü, bilik və bacarıqlarını artırmaq, mədəniyyət mübadiləsində aktiv iştiraklarını təmin etməkdir.

Avqustun 26-dək davam edəcək yay məktəbi Yohan Volfqan fon Göte adına Frankfurt Universitetində keçirilir. Proqram müddətində iştirakçılar gündəlik 3 saatlıq ingilis dili dərslərində, şəhər ekskursiyasında, tarixi abidələr və muzeylər gəzintisində, Lüksemburq səyahətində iştirak edəcəklər. Yay məktəbinin iştirakçıları ölkəmizdə 9-cu sinif üzrə buraxılış imtahanında ən uğurlu nəticə əldə etmiş 10 nəfəri əhatə edir. Yay məktəbinin media dəstəyi ASAN Radiodur.

## Ümumi daxili məhsul istehsalı artıb

2023-cü ilin yanvar-iyul aylarında ölkədə 70 milyard 372,2 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 0,7 faiz çox ümumi daxili məhsul istehsal olunub.

İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 2,2 faiz azalıb, qeyri neft-qaz sektorunda isə 3,4 faiz artıb. ÜDM istehsalının 42,8 faizi sənaye, 9,4 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 6,1 faizi nəqliyyat və anbar təsərrüfatı, 6,0 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 4,9 faizi tikinti, 2,3 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,6 faizi informasiya və rabitə sahələrinin, 17,7 faizi digər sahələrin payına düşüb, məhsula və idxala xalis vergilər ÜDM-in 9,2 faizini təşkil edib. Əhalinin hər nəfərinə düşən ÜDM 6938,8 manata bərabər olub.

## Azərbaycan əhalisinin sayı açıqlandı

Əhalinin son siyahıyaalınmasının nəticəsi əsasında 2023-cü il iyul ayının 1-i vəziyyətinə hesablanmış əhalinin sayı 10151517 nəfər təşkil edib.

Bu barədə Dövlət Statistika Komitəsinin hesabatında qeyd olunub. Əhalinin ümumi sayının 54,6 faizini şəhər, 45,4 faizini kənd sakinləri, 49,8 faizini kişilər, 50,2 faizini isə qadınlar təşkil edir.

## Azad edilmiş ərazilərdə daha 185 piyada əleyhinə mina aşkarlanıb

Avqustun 7-dən 12-dək Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə 392,12 hektar ərazini mina və partlamamış hərbi sursatlardan təmizləyib. Tərtər, Ağdam, Laçın, Xocavənd, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarında icra olunan əməliyyatlar nəticəsində ümumilikdə 185 piyada əleyhinə, 65 tank əleyhinə mina və 35 partlamamış hərbi sursat aşkarlanıb.

# Zəmanəmizin böyük Azərbaycanlısı

## Ölkədə yaradılan sabitlik ulu öndərin titanik fəaliyyətinin bəhrəsidir

**Ayrı-ayrı bölgələrdə separatçılıq və parçalanma meyillərinin baş qaldırması bütövlükdə Azərbaycanın bir dövlət kimi varlığına son qoyulması planını tam gücü ilə reallaşdırmağa hesablanmışdı.**



Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin istər 1969-cu ildə istərsə də 1993-cü ildə hakimiyyətə gəlişi ölkəmizin sərt sınaqlar ərəfəsində olduğu dövrə təsadüf edib. Hər iki gəlişi inkişaf, quruculuq, xilaskarlıq, qurtuluşla nəticələnib.

Ulu öndərimiz Azərbaycana rəhbərliyinin birinci dövründə respublikanı SSRİ məkanında sosial-iqtisadi, elmi-texniki və mədəni sahədə sonuncu yerlərdən qısa müddətdə öncül mövqelərə qalxmasına nail olub. Təsadüfi deyil ki, 1969-1982-ci illər Azərbaycan tarixində intibah dövrü kimi xatırlanır. 1993-cü ildə xalqın təkidli tələbi ilə ali hakimiyyətə qayıdan ulu öndər dövlətçiliyimizi məhv olmaq təhlükəsindən qorumaqla, böhranlı dönəmdə ölkəmizdə ictimai-siyasi sabitliyi və vətəndaş həmrəyliyini təmin etməklə bu günümüzə müstəqil Azərbaycan dövlətini bəxş etdi. Bununla da tariximizdə əbədi yaşamaq hüququ qazandı. Bu baxımdan möhtərəm dövlət başçımız cənab İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev ili" elan edilməsi haqqında sərəncamı böyük xilaskarın əziz xatirəsinə ümumxalq hörmət və ehtiramın nümunəsi olmaqla yanaşı, həm də dövlətçiliyimizin mühüm, siyasi tələtümlər, hərbi müdaxilələr, keşməkeşli, taleyüklü mərhələsinin öyrənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Sərəncamda qeyd olunur ki, "Zamanın hökmü ilə ötən əsrin 90-cı illərində dövlət müstəqilliyini bərpa edən Azərbaycan Ermənistanın təcavüzü, xarici təzyiqlər və daxili çəkişmələr üzündən dünyanın siyasi xəritəsindən silinmək və dövlətçiliyini itirmək təhlükəsi ilə qarşılaşmışdır. Taleyimizin həll olunduğu ağır bir zamanda xalqın təkidli tələbinə səs verərək yenidən hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirmiş, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtarmış, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını almış, yenidən qurduğu və hər cür qəsdlərdən qoruduğu dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etmişdir. Heydər Əliyevin ölkəmizə rəhbərliyi illəri xalqımızın nadir tarixi imkandan faydalanaraq, böyük əziyyətlər bahasına öz müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələdir."

Azərbaycan 1991-ci ildə dövlət müstəqilliyinə qovuşarkən Ermənistanın təcavüzkar siyasəti, hərbi müdaxilələr, saysız-hesabsız qanlı terror və hücumlarla üzləşmiş, qeyri-sabit ictimai-siyasi vəziyyət, insan hüquqlarının kütləvi şəkildə pozulması, hərc-mərclik, özbaşınalıq kimi hallar pik həddə çatmışdı. Həmin dövr daxili işlər orqanlarının sərt sınaqlara çəkildiyi dövr idi. Hələ Milli Ordu hissələri yaradılmadığından torpaqlarımızın və dinc əhalinin müdafiəsinə qalxan daxili işlər orqanları 1988-ci ildən başlayan Ermənistanın hərbi təcavüzünə qarşı döyüş əməliyyatlarında iştirak edirdi. Qanunla nəzərdə tutulmayan çoxsaylı silahlı dəstələr və ayrı-ayrı silahlı şəxslər kriminogen durumu xeyli gərginləşdirmiş, əhalidə vahimə və qorxu yaratmışdı. Vəziyyəti daha təhlükəli edən məqam - respublikanın rəhbərliyinə təsadüfi, siyasi iradəsi, qətiyyəti olmayan şəxslərin gəlməsi, onların yaranmış vəziyyətdən çıxış yolu tapa bilməməsi və bunun məntiqi nəticəsi kimi xalqın dövlət orqanlarına inamını itirməsi idi. Ayrı-ayrı bölgələrdə separatçılıq və parçalanma meyillərinin baş qaldırması bütövlükdə Azərbaycanın bir dövlət kimi varlığına son qoyulması planını tam gücü ilə reallaşdırmağa hesablanmışdı. Cəbhədəki məğlubiyyətlər, torpaqlarımıza Ermənistanın hərtərəfli xarici dəstəklə həyata keçirdiyi işğalçılıq siyasəti vəziyyəti daha da gərginləşdirirdi. Belə bir çətin vəziyyətdə - 1993-cü il iyunun 9-da müstəqil Azərbaycanın müasir tarixində yeni bir mərhələnin başlanğıcı olan parlaq səhifə açıldı. Azərbaycan xalqı müdriklik göstərdi və 1993-cü ildə - vətəndaş müharibəsi ərəfəsində Ulu Öndər Heydər Əliyevə müraciət etdi. Ümummilli Lider Heydər Əliyev xalqın təkidli tələbi ilə Bakıya gəldi, iyunun 15-də isə Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi.

*(Ardı var)*

*İlham Babayev*
*polis polkovniki*

# Asayiş, sabitlik sözü polislə qoşa çəkilirsə…

## Xilaskarlıq vəzifə borcu, vətəndaş təəssübkeşliyidir

**Bəzən xilaskarlığı həyatı bahasına başa gəlsə də təhlükədən qorxub geri çəkilməyi içdiyi anda dönüklük bilir polis.**

Təhlükə ilə üzləşmək riski polis peşəsini seçənlər üçün an məsələsidir. Məhz buna görə də



polis peşəsi riskli peşələr sırasına daxil edilib. Risk etmək gözlə görünən və ya görünməyən xilaskarlığa diqqətimizi çəkir. Meşə doğranır, heyvanlarla qeyri-insani rəftar edilir, su hövzələri çirkləndirilir, antisanitariya var və s. kimi onlarla belə hallara məhz polisin çevik reaksiyası ona rəğbəti daha da artırır. Bu sadalananlar polisin heç bir məsələyə biganə yanaşmadığını göstərir. Çünki cəmiyyəti tək cinayətkarlıq maraqlandırmır, həm də digər məsələlər var ki...

Bəzən qabağcadan proqnozlaşdırmaq iqtidarında olmasaq da baş verən hadisələrə çevik reaksiyamız ( bu günlərdə ölkəmizdə baş verən zəlzələ ilə bağlı polisin bütün qurumlardan əvvəl çevik reaksiya verməsi insanlar tərəfindən xüsusi həssaslıqla qarşılandı) diqqətdən kənar qalmır.

Bəzən xilaskarlığı həyatı bahasına başa gəlsə də təhlükənin qabağından geri çəkilməyi içdiyi anda dönüklük bilir polis.



### Diqqət edək!

Polis özünü körpüdən atmaq istəyən qadını xilas etdi. Lənkəranda, daha dəqiq desək, Hirkan qəsəbəsində 23 yaşlı qadın ailədaxili problemlər səbəbindən özünü Ələt-Astara magistralının üstündən keçən körpüdən atmaq qərarına gəlib. Ətrafdakı insanlar onu fikrindən daşındırmağa çalışsalar da buna nail olmayıblar. Həmin vaxt yoldan keçən Lənkəran polis şöbəsinin əməkdaşının sayıqlığı nəticəsində özünəqəsdin qarşısı alınıb. Polis qəfil həmlə ilə qadını xilas edib.

"Polis bizə təhlükədən daha yaxındır" fikri məhz bu kimi olaylar yaşandıqdan və qarşısı alındıqdan sonra cəmiyyətin polisə bir təşəkkür, minnətdarlıq jestidir.

### Daha bir fakt

Bu xəbər ölkə mətbuatında və sosial şəbəkələrdə maraqla izlənilib. Xəbərdə istirahət zonalarında valideynlərin azyaşlı övladlarını nəzarətsiz qoymaları halları müşahidə edilir fikri polisin məsələ ilə bağlı həssaslığının kulminasiya



nöqtəsidir. Və elə həmin gün paytaxt çimərliklərində itən 42 uşaq tapılaraq valideynlərinə və ailə üzvlərinə təhvil verilib.

Yeri gəlmişkən, yay mövsümü olduğundan respublikamıza xarici ölkələrdən təşrif buyuran turistlərlə yanaşı, vətəndaşlarımız da istirahət üçün bölgələrə üz tuturlar. Məhz bu məsələni də diqqətdə saxlayan Daxili İşlər Nazirliyi tərəfindən respublikamızın bütün istirahət rayonları üzrə təhlükəsizlik və ictimai qaydanın effektiv qorunması məqsədilə xidmət təşkil edilib.

### Turistlər təşəkkür edirlər

"Cənub bölgəsində istirahətdə idik. Masallı postuna yaxınlaşanda birdən avtomobilin mühərrik hissəsindən tüstü çıxdığını gördüm və kəskin yanığın iyi hiss etdim. Cəld maşını saxladım. Səbəbini tapa bilmədim. Və əlbəttə ki, mənə postda xidmət aparan polis əməkdaşı yaxınlaşdı. Özünü təqdim etdi. Adı Eldəniz, rütbəsi baş serjant idi. Köməyə ehtiyacım olduğunu və bu vəziyyətdə Bakıya gedə bilməyəcəyimi bildirdim. O, harasa zəng vurdu. Yarım saat keçməmiş maşın ustası gəldi. Qırılan detalın bərpa olunmayacağını bildirdi. Polis qardaşımız ona da çarə tapdı. Bizi öz xidməti maşını ilə yaxınlıqdakı istirahət mərkəzlərindən birinə aparıb gözləməyimizi xahiş etdi. Maşınım postda qaldı. Aradan 3 saat keçəndən sonra məlum oldu ki, polis texniki nasazlığı aradan qaldırıb". Bu fikirlərin yer aldığı məktubu ünvanımıza Turan adlı vətəndaş göndərib.

Sadalananlar niyə polis xidməti borcun yerinə yetirilməsi zamanı səmimi, qorxmaz və qətiyyətli olmalıdır fikrini də ortaya qoyur. Cavab isə çox sadədir: Ona görə ki, başqalarının həyat və sağlamlığını təhlükədən xilas etmək polisin əsas vəzifələri sırasındadır ki, cəmiyyət onu qorumağa məsul olan qüvvəyə inam, etimad göstərir və etibar edir.

*Hafiz Təmirov*
*polis polkovnik-leytenantı*

# Bakı beynəlxalq tədbirlərə evsahibliyi edir

## Atıcılıq üzrə 53-cü dünya çempionatının açılış mərasiminin Azərbaycanda keçirilməsi sabitlik adasına inamın ifadəsidir

Avqustun 15-də Bakı Kristal Zalında təşkil olunan tədbirin açılışı bayraqların paradı ilə gerçəkləşib.

Ardınca Azərbaycan mədəniyyətini əks etdirən videoçarx nümayiş etdirilib, ölkə bayrağı








səhnəyə gətirilib və Dövlət Himni səsləndirilib.

Tədbir iştirakçılarını salamlayan Gənclər və idman naziri Fərid Qayıbov yarışın ölkəmizdə Heydər Əliyev ilinə təsadüf etməsini əlamətdar bir hadisə kimi dəyərləndirib. O, ulu öndərin daim idmançıların yanında olduğunu, Azərbaycanda idmanın dövlət siyasətinin prioritetlərindən birinə və ümumimmilli hərəkata çevrilməsindəki rolunu xüsusi vurğulayıb.

Yarışın təşkilatçılığını Bakıya həvalə etdikləri üçün Beynəlxalq Atıcılıq İdmanı Federasiyasına (İSSF) təşəkkürünü bildirən nazir bütün idmançılara uğurlar arzulayıb.

Sonra Azərbaycan idmançıları Beynəlxalq Atıcılıq İdmanı Federasiyasının bayrağını səhnəyə gətiriblər.

İSSF prezidenti Luçiano Rossi Bakının bir sıra beynəlxalq yarışlara ev sahibliyi etdiyini qeyd edib. O, Azərbaycan Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlığını bildirib. Qurum rəhbəri idmançılara uğurlar arzulayıb və gözəl yarış olacağına ümid etdiyini söyləyib.

İdmançı, məşqçi və hakimlərin andiçməsindən sonra rəsmi hissə başa çatıb, bədii hissə başlayıb.

Qeyd edək ki, yarış sentyabrın 1-dək davam edəcək. Turnirə 101 ölkədən 1239 idmançı qatılıb. Azərbaycan dünya çempionatında 31 atıcı ilə təmsil olunacaq.

---

# Polisə təşəkkür edirlər

## Fədakar xidmət qürur doğuran ictimai rəyə zəmindir

Hər gün DİN-ə vətəndaşlar tərəfindən çoxlu sayda təşəkkür məktubları daxil olur. Polis-vətəndaş münasibətlərinin real mənzərəsini yaradan, güvənci, etibarı ehtiva edən bu məktublar onu deməyə imkan verir ki, Azərbaycan Polisinin gərgin xidməti ictimaiyyətin diqqət mərkəzindədir.

İctimai asayişin qorunmasında, cinayətkarlığa qarşı qətiyyətli mübarizədə, istərsə də müxtəlif problemlərin həlli istiqamətində vətəndaşların müraciətlərinə operativ yanaşılması həm məktub müəlliflərinin, həm də sosial şəbəkə istifadəçilərinin rəylərində öz əksini tapır.

Vətən müharibəsi qazisi Elvin Qarayev itirdiyi pulqabısının tez bir zamanda polis tərəfindən tapılaraq geri qaytarılmasından məmnunluğunu ifadə edir.

İnstaqram istifadəçisi Xoşqədəm Əkbərova yol nəqliyyat hadisəsi ilə



əlaqədar aparılan obyektiv araşdırmaya, səmimi qəbula görə Nərimanov Rayon Polis İdarəsinin əməkdaşlarına təşəkkürünü bildirir.

Paytaxt sakini Əhəd Muxtarlı dələduzluğa məruz qalması barədə müraciətinə operativ şəkildə baxılaraq ona dəyən ziyanın ödənilməsində göstərdikləri köməkliyə görə Nəsimi Rayon Polis İdarəsinin əməkdaşlarına təşəkkürünü bildirir.

Paytaxt sakini İbrahim Sadıqov isə onlayn müraciətində narkotiklərin qanunsuz dövriyyəsinə və narkomaniyaya qarşı Azərbaycan Polisinin apardığı qətiyyətli mübarizə tədbirlərini təqdir edir, çətin və şərəfli xidməti fəaliyyətlərində uğurlar diləyir.

Paytaxt sakini Bəxtiyar İbrahimov evində baş vermiş oğurluq hadisəsi ilə bağlı müraciətinə operativ baxılaraq açılmasında, ona dəyən ziyanın ödətdirilməsində göstərdikləri köməkliyə görə Sabunçu Rayon Polis İdarəsinin əməkdaşlarına təşəkkürünü bildirir.

Səbinə Qurbanova mövsümlə əlaqədar vətəndaşların çimərlik zonalarında sıxlığını nəzərə alaraq onların rahat istirahətinin təmini və təhlükəsizliyini yüksək səviyyədə qorumaq üçün Azərbaycan Polisinin gücləndirilmiş iş rejimində xidmət aparmağını yüksək dəyərləndirir. Yazır ki, "Dəniz çiçəyi" deyilən çimərlik ərazisində bir uşağın boğulma təhlükəsi ilə üz-üzə qaldığını görən və həmin ərazidə xidmət aparan polis əməkdaşı tez suya atılaraq onu sudan çıxartdı və ilkin tibbi yardım göstərdi. Beləliklə, xilaskarlıq missiyasını fədakarlıqla yerinə yetirən Azərbaycan Polisi günümüzün qəhrəmanına çevrildi...

*Aytəkin Nəcəfova*
*polis polkovnik-leytenantı*

---

# Polis tapdı, həqiqət ortaya çıxdı

## Sığınacağa yerləşdirilən yeniyetmənin gələcəyi etibarlı əllərdədir

Xəzər rayonunda polis əməkdaşları tərəfindən itkin düşmə faktı ilə axtarışda olan yeniyetmə müəyyən olunub.

Araşdırmalarla evdən çıxıb geri dönməyən 17 yaşlı A.İsmayılova küçələrdə gecələdiyinin, evlərinə geri dönməməyinin səbəbini isə atalığı tərəfindən qeyri-insani rəftara məruz qalması ilə əlaqələndirib. Ailədə diqqət və qayğı görməyən, incidilən yeniyetmə çıxış yolunu evdən qaçıb tək yaşamaqda görüb.

O, "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyi nəzdində fəaliyyət göstərən "Gender əsaslı Zorakılıq Qurbanları üçün Reabilitasiya və Reinteqrasiya Mərkəzi" nə yerləşdirilib.

---

# Yaşları az olsa da...

## Barələrində qanunvericiliyə uyğun tədbir görülən də var, sığınacağa yerləşdirilən də

Cari ilin ötən dövrü ərzində valideyn nəzarətindən, ictimai təsir vasitələrindən, habelə pedaqoji mühitdən kənarda qalan, eləcə də müxtəlif qanun pozuntularına görə polis orqanlarına, xüsusi qəbul, saxlama və təcridetmə mərkəzlərinə 2779, o cümlədən avaralıq və dilənçiliklə məşğul olan 197 azyaşlı gətirilib, hər biri barəsində qanunvericiliyə uyğun tədbirlər görülüb.

Valideyn himayəsindən məhrum olan və sosial təhlükəli vəziyyətlə üzləşən uşaqların dövlət qayğısı ilə əhatə olunması məsələlərinə xüsusi önəm verilib, ötən dövr də bu qəbildən olan 82 nəfər azyaşlı aşkar edilərək onlardan 6-sı körpələr evinə, 77 nəfər isə uşaq evinə və sosial sığınacaqlara təhvil verilib.

*Aytəkin Nəcəfova*
*polis polkovnik-leytenantı*

---

# Qan verdilər: yaşatmaq üçün

## Həyatı xilas olunmuş bir körpənin təbəssümü dünyanı xilas edəcək




Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibətilə hemofiliya, talassemiya və digər qan xəstəliklərindən əziyyət çəkənlərə yardım məqsədilə təşkil edilən qanvermə aksiyasında Səbail Rayon Polis İdarəsinin və Nəsimi Rayon Mühafizə İdarəsinin əməkdaşları da fəal iştirak ediblər.

Aksiyanın humanitar əhəmiyyətini və xeyirxah bir əməl olduğunu qeyd edən həmkarlarımız bu nəcib işdə hər zaman həmrəylik nümayiş etdirib həyat qurtardıqlarını, qana ehtiyacı olanların köməyinə çatdıqlarını bildirdilər.

Qeyd edək ki, xüsusi tibb briqadasının həkim-hemotoloqları tərəfindən hər bir donorun qan qrupu müəyyən olunduqdan, onların səhhətində hər hansı bir problemin olub-olmaması yoxlanıldıqdan sonra qanvermə aksiyasına start verilib.

*"Polis"*

---

# Narkotik varsa - təhlükədir

## Respublikamızın bütün bölgələrində narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə davam edir

Gəncə şəhər Baş Polis İdarəsinin Narkotiklərlə Mübarizə Bölməsinin əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində İran İslam Respublikasından qeyri-qanuni yolla ölkə ərazisinə gətirilmiş narkotik vasitənin satılmasını təmin etmək istəyən şəxs saxlanılıb.

Gəncə regional qrupumuzdan verilən məlumata görə, araşdırmalar zamanı məlum olub ki, Gəncə şəhər sakini Sərxan Nəbiyev sosial şəbəkələr üzərindən İran vətəndaşı ilə Gəncə şəhəri ərazisində gizlədilən narkotik vasitəni götürərək şəhər ərazisində və kənarda satması barədə razılaşıb.

Həmin şəxs Gəncə şəhərində saxlanılaraq Baş Polis İdarəsinə gətirilən zaman əlindəki çantadan 17 bükümdə ümumi çəkisi 18 kq narkotik maddə olan "heroin" aşkarlanaraq götürülüb.

### İdman çantasından narkotik və silah çıxdı

Ağstafa Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində İrandan qeyri-qanuni yolla Ağstafa rayon ərazisinə gətirilmiş narkotik vasitəni onlayn sifariş kimi qəbul edərək ölkə ərazisində çatdırılmasını təmin edən narkokuryer saxlanılıb.

Araşdırmalar zamanı məlum olub ki, Qazax rayon sakini Ruslan Cəfərov Ağstafaya gələrək rayon ərazisində gizlədilən narkotik vasitəni pul və bir miqdar narkotik vasitə qarşılığında ölkənin digər şəhər və rayonlarına aparmağa razılaşıb. Ruslan Cəfərova məxsus idman çantasından müxtəlif bükümlərdə, ümumi çəkisi 757 qram narkotik maddə olan "heroin", 2 kiloqramdan artıq olan "marixuana" və 2 ədəd tapança tipli odlu silah aşkar edilərək götürülüb.

---

# Hadisələr azalır

## Görülən tədbirlər təsirsiz ötüşmür



2023-cü ilin yanvar-iyun aylarında 780 yol-nəqliyyat hadisəsi baş verib ki, buda 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 4,5 faiz azlıq təşkil edir.

Dövlət Statistika Komitəsindən verilən məlumata görə bu hadisələr nəticəsində zərər çəkənlərin sayı 4,8 faiz azalaraq 1056 nəfər olub.

Onlardan 387-si həlak olub, 669-u isə yaralanıb. Yol-nəqliyyat hadisələrinin 88,5 faizi yaşayış məntəqələrində baş verib, bu hadisələr nəticəsində həlak olanların sayı ötən ilin müvafiq dövrünə nisbətən 24,7 faiz artaraq 293 nəfər, yaralananların sayı isə 7,5 faiz azalaraq 644 nəfər olub.

Nəqliyyat vasitələrinin sərxoş vəziyyətdə idarə olunması səbəbindən 16 hadisə baş verib, nəticədə 4 nəfər həlak olub, 18 nəfər yaralanıb. Hadisələrin 13-ü minik avtomobillərinin sürücüləri tərəfindən törədilib.

# Daxili İşlər Nazirliyi müsabiqə elan edir

## Xarici dillərdən birini sərbəst bilən və kompüterlə işləmək qabiliyyətinə malik namizədlərə üstünlük veriləcək

**Daxili İşlər Nazirliyi Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsinin bilavasitə tabe olan Lənkəran, Masallı, Salyan “ASAN Xidmət” mərkəzləri üzrə regional qruplarda vakant olan sıravi və kiçik rəis heyəti vəzifələrinə xanımların qəbulunu elan edir.**

Müsabiqədə yaşı 20-dən 30-dək, boyu 160 santimetrdən yuxarı olan, Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrini bitirən, əvvəllər özü və yaxın qohumları qəsdən törədilən ağır cinayətlərə görə məhkum edilməyən cənub bölgəsi üzrə rayonlarda qeydiyyatda olan vətəndaşlar iştirak edə bilərlər.

Onlar müəyyən edilən normalar üzrə yoxlanılacaq, xarici dillərdən birini sərbəst bilən və kompüterlə işləmək qabiliyyətinə malik namizədlərə üstünlük veriləcəkdir.

**Müsabiqədə iştirak etmək istəyən xanımlar 2023-cü ilin avqustun 28-dək Lənkəran rayonunun Göyşaban kəndində yerləşən Daxili İşlər Nazirliyinin müvafiq Baş İdarəsinin Cənub Bölgəsində Regional Şöbəsinə müraciət edə bilərlər.**

Əlavə məlumat almaq istəyən şəxslər **(012) 590-64-41** nömrəsinə zəng edə bilərlər.

# Polis xəfiyyəsi – Ejen Fransua Vidokun memuarları - Əməliyyat mövqeyi

## Əməliyyat-axtarış işinin və kriminalistikanın əsasları

***1828-ci ildə Vidokun elmi-fəlsəfi memuar xarakterli “Parisin sirləri”, “Oğru: əxlaq və psixologiya” əsərləri Onore de Balzakın yazdığı ön sözlə nəşr olunub. Təhlil və araşdırmalara görə, Vidokun təcrübəyə əsaslanan qeydləri və tövsiyələri tərbiyəvi mahiyyət daşımaqla, əməliyyat-axtarış işinin, kriminalistikanın konstitusiyasıdır. Bunu nəzərə alaraq, hələ bir neçə il əvvəl Vidokun “Parisin sirləri”, “Oğru: əxlaq və psixologiya” əsərlərindən parçaların ilk dəfə Azərbaycan dilinə tərcüməsinə başlamışdıq. Üzərindən uzun illər, onilliklər ötsə də, bu “konstitusiya” qüvvədən düşmür. Odur ki, yenidən və daha təfsilatlı tərcümə ilə əfsanəvi polis xəfiyyəsi Vidokun memuarlarına qayıdırıq.***





Cənab Anri mənə kuryer xidməti barədə məlumat toplamağı tövsiyə etdi, öyrəndim ki, qapıda unudulan kişi 712 nömrəli daşıma xidməti göstərən Gyusson adlı şəxsə məxsusdur. Mən bu barədə məlumat verdim, Gyusson vasitəsilə də Delzev qardaşları həbs olundu. Onlardan böyüyü polislə əməkdaşlığa razılıq verdi. Cənab Anri tərəfindən dindirilərkən, o, çox vacib məlumatlar açıqladı və imperatiçə Jozefinanın evində parket təmizləyicisi işləyən Metral adlı şəxs də tutuldu. Onun əsas işi oğurlanan əşyaları saxlamaq idi. Oğru dəstəsi Leman depratentinin sakinləri olan qaynaqçılardan ibarət idi. Axtarışlar nəticəsində mən Pilar, Urenye, Lebren, Pyessar, “Aptekçi” ləqəbli Mabu, Serrase, Dyuran qardaşlarının izinə düşdüm. 22 nəfər ifşa edildi və onların hamısı sonradan katorqaya göndərildi.

Bu oğrular əsasən komissiyonerlər, parket təmizləyənlər, arabaçılar, faytonçular, paltaryuyanlar və səyyar müğənnilər idi. Bu təbəqədən olan insanlar dürüstlüyü ilə seçilirdilər və həmişə nümunəvi həyat tərzi ilə fərqlənirdilər. Cəmiyyətdə onlara yaxşı, sınaqlardan çıxmış, başqasının mülkiyyətinə qəsd etməyəcək adamlar kimi baxırdılar. Bu reputasiya, onları daha yaxşı maskalayırdı. Çünki onlara hamı etibar edir, inanırdı və bu inam onları asanlıqla gizlədirdi. Onlara hər yerə daxil olmağa icazə verirdilər, heç kim inamsızlıq göstərmirdi. Bu hadisələrdən xəbər tutanda isə onların günahkar olduğuna inanmırdılar.

Amma elə sübutlar vardı ki, hamı inandı və bundan sonra paytaxtda bir neçə toxunulmazlıq hüququna malik olan, hətta səyyar müğənnilərin dəstəsi tamam yoxa çıxdı.

### “Xərçəng” əməliyyatı – Delzevin yaxalanması

1812-ci il ərzində mən ədalət mühakiməsinə bu dəstənin əsas üzvlərini təslim etdim. Amma Delzev qardaşlarından kiçiyi hələ də ələ keçməmişdi və gizlənməkdə davam edirdi. 31 dekabr 1812-ci ildə cənab Anri mənə dedi:

-Düşünürəm ki, yaxşı işləsək, onun gedəcəyi ünvanları nəzarətə götürsək “Xərçəngi” (Delzev) tuta bilərik. Sabah yeni ildir və Delzev ona, qardaşına tez-tez sığınacaq verən paltaryuyan qadına baş çəkməyə gedəcək. Məndə bir hiss var ki, o, gecəyarısı, yaxud səhərə yaxın gedəcək. Çünki hər bir cinayətkar kiminsə çox yaxın tanışıdır. Onun əməlləri barədə mütləq ikinci adam məlumatlıdır. Elə adam doğulmayıb ki, öz “qəhrəmanlığını” kiminləsə bölüşməsin.

Mən cənab Anri ilə razılaşdım. O, 3 müfəttişlə birlikdə paltaryuyan qadının evinin yerləşdiyi Fobur-Sent-Onoredə, Qrezilon küçəsində pusqu qurmağı tapşırdı. Üç müfəttiş ilə gecə saatlarında müəyyən olunan yerə getdik. Çox soyuq idi, yer qalın qarla örtülmüşdü. Biz ehtiyatla gözləyirdik, bir neçə saat gözlədikdən sonra soyuqdan donan müfəttişlər artıq evlərinə getmək istəyirdilər. Mən də demək olar ki, tamam donmuşdum. Amma mən etiraz etdim və onları yenə gözləməyə razı saldım. Getmək üçün müəyyənləşdirdiyimiz vaxt çatan kimi onlar yenə məni dilə tutmağa başladılar. Biz pusqu qurduğumuz yeri tərk edib, açıq kafelərdən biri Pale-Royala getdik. İsti şərab içərək, xudahafizləşdik. Evə gələrkən düşündüm ki, biz nə etdik? Verilən tapşırığı niyə belə tez unutduq? Yox, bizə inanan rəisə yalan danışmaq, etimadı itirmək olmaz. Mən davranışımı yalnız səhv kimi qiymətləndirmədim, həm də düşündüm ki, bu ən sərt cəzaya layiqdir. Çox peşiman idim və əzab çəkirdim ki, müfəttişlərin təsirinə düşdüm. Öz səhvimi düzəltmək üçün təkbaşına geri dönməyə və donsam belə səhərə qədər gözləməyə qərar verdim. Mən geri qayıtdım və küçənin tinində işıqlanmayan yerdə gizləndim ki, görünməyim.

Bir saat yarım keçdi və hiss edirdim ki, artıq qanım da donmaq üzrədir. Birdən ağlıma gözəl fikir gəldi, yaxınlıqda təzək topası vardı, çuxur qazdım və orada gizləndim. Bu mənə istilik verdi. Səhər saat beşdə hələ yerimi tərk etməmişdim, nəhayət qadın evdən çıxdı və qapını bağlamadı.

*(Ardı var)*

# Söz ustalığı – nitq

## Hərdən özümüzə bu sualı mütləq verməliyik: biz nə qədər söz bilirik?

El gözü tərəzidir: həmişə yaxşını pisdən ayırmağı bacarır. İnsanların ürəyinə yol tapmaq üçün gərək elə söz seçib, elə ifadə işlədəsən ki, sənə qulaq asa, söylədiyindən nəticə çıxara bilsinlər. Qəflətən də səni hansısa bir mövzu barədə danışmağa dəvət edə bilərlər. Buna görə də sözünü, cümləni elə qurmalısan ki, gülüş hədəfi olmayasan, istehza ilə qarşılanmayasan. Özünün ictimai əhəmiyyətli fikirlərini anlaşıqlı, inandırıcı, təsiredici bir şəkildə ifadə etməyi bacaran adam əsl natiqdir. Natiqin də silahı canlı sözdür. Bəs bu sözdən necə istifadə edə bilirik? Natiqlik söz ustalığı üzərində qurulmuş bir sənətdir. Ən zəngin mənəviyyata malik olan insan da üzərində müntəzəm işləməsə, dünyanın yeniliklərindən, ətrafda baş verən hadisələrdən, Azərbaycan dilinin qanun-qaydalarından, qrammatikasından xəbərdar olmasa, bu yerdə hansısa istedadın da köməyi çatmaz. Natiqlik sənətinin əsas materialı sözdür. Ona görə də bu materiala mükəmməl yiyələnmək gərəkdir. Hər şeydən əvvəl, insan öz leksikonunu zənginləşdirməlidir. Hərdən özümüzə bu sualı mütləq verməliyik: biz nə qədər söz bilirik? Bu, insanın mədəni inkişaf dərəcəsindən asılıdır. Nitqin aydınlığı, dilin sadəliyi naminə hər nə gəldi danışmaq gərək deyil. Danışan tez-tez "deməli ki", "biz görürük ki", "necə deyərlər", "özünüz bilirsiniz ki" və s. kimi təkrarlanan ifadələri nitqdən çıxarmalıdır. Nitqin bir mühüm cəhəti də qısa olmasıdır. Natiq nə qədər öz fikrini yığcam ifadə etməyi bacarsa, bir o qədər yaxşıdır. Sadəlik ən böyük məziyyətdir. Sadəlik dilin zənginliyini və gözəlliyini nəinki sadələşdirir, əksinə, dildə ifadəli vasitələrdən daha bariz istifadə edilməsinə şərait yaradır.

# Çempion polis

## Həmkarımız II MDB oyunlarının qızıl medalçısı oldu



İdmanın ölkəmizdə ümummilli hərəkata çevrilməsi gələcəyimiz olan gənclərin zərərli vərdişlərdən uzaq durmasını, onların böyük uğurlara imza atmasını şərtləndirən amillərdəndir. Bu günlərdə aldığımız xoş xəbər də dövlətimizin idmana və idmançılara verdiyi dəstəyin ifadəsidir. Ölkəmizin idmançıları sırasında DİO əməkdaşlarının sərhədlər aşan qələbə xəbərlərini eşitmək isə bizim üçün fəxrdir.

Avqustun 4-10 tarixlərində Belarusda II MDB Oyunlarında ağır atletika üzrə keçirilən yarışda da bayrağımız dalğalanıb, himnimiz səslənib. Qrodno şəhərindəki Buz İdman Sarayının yarış zalında 150-dən çox idmançı arasında həmkarımız - Əlahiddə Çevik Polis Alayının taqım komandiri, polis baş leytenantı Dadaş Dadaşbəyli də mübarizəyə qatılıb. O, 109 kiloqram çəki dərəcəsində qüvvəsini sınayıb.

Təkanla qaldırma hərəkətində rekordu qıran D.Dadaşbəyli toplam 393 kiloqram (177+216) nəticə ilə bütün rəqiblərini üstələyərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

*Ruhiyyə Əliyeva*
*polis kapitanı*

# Öz silahımızı tanıyaq

## “Zəfər”- yaxın döyüşün qorxunc silahı



Polis və digər güc strukturları əməkdaşlarına xidmət zamanı təhkim olunan tapança düşməni və ya cinayətkarı yaxın məsafədən dəf etmək üçündür. Bu silahın çətin situasiyalarda əlçatan və asan istifadə olunmasını daha da təkmilləşdirən mütəxəssislər, sözün əsl mənasında, gecəni-gündüzə qatıblar.

Bir neçə il əvvələ qədər ölkəmizdə də güc strukturlarının, eləcə də polisin “sadiq dostu” olan “Makarov” tapançalara maraq Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin müəssisələri tərəfindən istehsal olunan yaxın döyüşün qorxunc silahı “Zəfər”dən sonra azalmağa başladı.

Özünəməxsus bir stildə hazırlanan 9 mm-lik “Zəfər” tapançaları döymə və tökmə poladı, yüngül metalları, polimer hissə və detalları özündə birləşdirir. Məsələn “P” (polimer) indeks ilə “Zəfər” tutqun paslanmayan qara poladdan hazırlanan örtük-çaxmağa və poladdan zəif olmayan, lakin bir neçə dəfə ondan daha yüngül olan plastik çərçivəyə malikdir. Burada kütlə qənaətinin tapançanın istismarına və döyüşçünün taktiki imkanlarına necə müsbət təsir etdiyini ətraflı təsvir etməyə ehtiyac qalmır.

Xüsusi olaraq qeyd etmək lazımdır ki, ikisıralı tapança xəzinələri standart 15 mərmi tutur. Artırılan həcmlə 17 və 20 mərmi üçün də xəzinələr mövcuddur və onlar bir-birini əvəz edə bilir, bu isə həm mülki patrullarda, həm də xüsusi əməliyyatlarda düşmən üzərində ataş hökmranlığı vacib olduqda onların istifadəsinə imkan verir. Xəzinənin dəyişdirmə düyməsi, tətik qoruyucusunun aşağısında yerləşir.

“Zəfər” seriyasının avtomatik yüklənməsi, lülənin qısa geri təpməsinə əsasən qurulub, lülənin kilidlənməsi və açılması isə ənənəvi üsulla yerinə yetirilir. Tətikdən istifadə edərək özünüyükləmə mexanizmindən istifadə edilir. Silah çərçivəsinin sol tərəfində zərbə mexanizmini də avtomatik sığortalayan bayraq tipli qoruyucu yerləşdirilib. Dolu tapança birinin əlindən yerə düşdükdə, qoruyucu atıcı və ətrafdakıları təsadüfi atəşdən müdafiə edir.

“Zəfər”i koburadan götürən anda baş barmaqla qoruyucudan çıxarmaq daha rahatdır. Açıq giliz xaric etmə yuvası, mərmi xəttinin boş olub-olmadığını müəyyənləşdirməyi asanlaşdırır. Xəttin bütün modellərində ovucun anatomiyasını təkrar edən xoşagəlimli plastikdən istifadə olunur.

Tapançanın nişangahı açıq tiplidir, o iki mövqedə tənzimlənən arxa hədəf kəsiyindən və tənzimlənməyən ön arpacıqdan ibarətdir. “Zəfər”in Pikatinni lövhəsindən istifadə edərək, onun üzərinə taktiki fənər və lazer göstəricisi quraşdırmaq mümkündür.

“Zəfər”in taktiki-texniki xüsusiyyətləri:

- çapı: 9x19 mm “Luger/Parabellum”
- atəş məsafəsi: 75 m
- xəzinə tutumu: 15/20 * mərmi (sifarişlə)
- sistem: yarımavtomatik, qısa geri təpməli
- nişangah: ön, tənzimlənən
- ağız sürəti: 350 ± 10 m/s
- boş kütləsi: 950 q
- parametrləri: 204.5x139x37 mm (uzunluq, hündürlük, en)
- lülənin uzunluğu: 117 mm
- istismar temperatur intervalı: ± 50° C
- qoruyucu: iki vəziyyətli mexaniki bloklama.

POLİS

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.

REDAKTOR:
HAFİZ TƏMİROV

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10390

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az

Qiyməti 40 qəpik